**Moskva və Ümumrusiya Patriarxı Kirilin arxipastırlara, pastırlara, dyakonlara, rahib və rahibələrə və Rus Pravoslav Kilsəsinin bütün sadiq övladlarına Pasxa müraciəti**

*Baxın, Allahın övladları adlandırılmaq*
*və olmaq üçün Ata bizə necə sevgi verib.*

***(1 İn. 3, 1)***

**Tanrının sevdiyi arxipastır həzrətləri, sadiq presviter və dyakonlar, tanrısevər rahib və rahibələr, əziz bacı və qardaşlar!**

**İSA DİRİLDİ!**

Mənim əzizlərim, bu sevincli və həyatverici sözlərlə sizin hamınızı ürəkdən salamlayır və böyük xilasedici Pasxa bayramı münasibətilə təbrik edirəm. Ümumdünya müəllimlərindən biri olan müqəddəs Qriqori Boqoslovun dili ilə Kilsə bu müqəddəs günü bayramlar bayramı, təntənələr təntənəsi adlandırır. Və dərin dini məna bundan ibarətdir, çünki "Pasxa nəinki bütün insan və yer təntənələrindən, hətta Xristosun və Xristos üçün keçirilən təntənələrdən üstündür, necə ki, günəş ulduzlardan üstündür" (Söz 45, Müqəddəs Pasxaya). Bizim imanımızın mənası və dərin mahiyyəti, dünyaya xristian müraciətinin özəyi və böyük gücü insan nəslinin xilası tarixində ən mühüm hadisəyə çevrilmiş Rəbbimiz İsanın şanlı Dirilməsindədir. Bu günlərdə bizim bütün xütbəmiz cəmi iki sözə yerləşir. "İsa dirildi!" – Bunu dedikdən sonra daha nə deyə bilərəm? Hər şey deyilib!" – Moskva mitropoliti müqəddəs Filaret deyirdi (Müqəddəs Pasxa günündə Söz, 18 aprel 1826-cı il).

Adəmin günah işləməsindən sonra bəşəriyyətin tarixi – xeyrin şərlə fasiləsiz mübarizəsidir. Yaradana itaətsizlik edərək, insanlar öz dünyasına günahı, onunla birlikdə isə əzab və xəstəlikləri, yanma və ölümü buraxdılar. Lakin ən başlıcası, günah insanları şəri yaratmayan və bütün yalanlara yad olan Allahdan ayırdı. Heç bir mömin bu faciəvi bölünmənin, bu nəhəng mənəvi uçurumun qarşısını ala bilmədi, belə ki, yalnız insan qüvvəsi ilə bunu etmək mümkün deyil. Buna görə də, müqəddəs Qriqori Boqoslovun dediyi kimi, "biz dirilmək üçün təcəssüm edən və öldürən Tanrıya ehtiyac duyduq" (Söz 45, Müqəddəs Pasxaya).

Başqa sözlə desək, İsanın Dirilməsi əbədiyyətə yol açdı və bunun sayəsində insani məhdudluğun qarşısı alınmış və Tanrıyla birləşmək arzusu yerinə yetmişdir. Pasxa – Yaradanın insanlara sonsuz sevgisinin təntənəsidir, "çünki Tanrı dünyanı elə sevmişdir ki, Ona iman gətirən hər bir kəsin həlak olmaması, əbədi həyata malik olması üçün Özünün Yeganə Oğlunu vermişdir" (İn. 3, 16).

Lakin ağrı və iztirablara məruz qalan, müharibə və münaqişələrdən yorulan, qəzəb və nifrətlə dolu olan dünyada Pasxanı qeyd etmək nə deməkdir? Bizim hər birimizin dünyadakı həyatının aşkar sonu ölüm olduğu halda *"ölümü ölümlə ayaqlamaqla və yaşayanlara qəbirlərdə həyat verməklə"* oxumaq nə deməkdir? Şübhəsiz ki, Pasxa Kainatda ölümün real varlığını ləğv etmir, lakin Dirilən Rəbbimiz İsa indi insan ağrısına və həyat faciəsinə qalib gəlir. O, bizə – öz şagirdlərinə və davamçılarına əbədi həyata nail olacağımıza dair yenilməz ümid verir. Bundan belə ölüm bizlər – xristianlar üçün daha ayrılıq deyil, Tanrı ilə ürəkaçan görüş və gözlənilən birləşmədir.

İsa, ölənlərdən ilki olaraq (1 Kor. 15, 20), bizə günahın və ölümün qarşısının alınmasının yeganə yolunu göstərdi. Bu sevgi yoludur. Və biz bu sevgini bütün dünyaya təsdiq etməliyik. Və bunu ilk növbədə öz həyat nümunəmizlə göstərməliyik. Çünki bizim aramızda sevgi olarsa, hər kəs bizim Xilaskarın şagirdi olduğumuzu biləcək (İn. 13, 35).

Apostol Pavelin dediyinə görə kamilliklərin cəmi olan sevgi (Kol. 3, 14) – xristian ləyaqətlərindən ən yüksəyi və ən böyüyüdür. Əbədiyyətə keçərkən, biz Tanrının Özünü görməyə layiq görüləndə, bizim imanımız biliyə çevriləcək, xilasa ümidimiz isə Tanrının mərhəməti ilə həyata keçəcək. lakin sevgi heç vaxt bitməyəcək (1 Kor. 13, 8) və heç bir zaman dəyişməyəcək.

Müqəddəs İqnatinin (Braynçaninov) gözəl təbirincə desək, xristianlığın mükəmməlliyi yaxınına kamil sevgidən ibarətdir (Asketik təcrübələr. Yaxına sevgi haqqında). Bəs "Kamil sevgi" nə deməkdir? Bu, yad insanlara, bədxahlara və hətta düşmənlərə qarşı olan sevgidir. Bu, qurbanlıq sevgidir, bütün insani dərrakədən üstündür, belə ki, adi həyati məntiqə sığmır. Ona yalnız Tanrının nemətini cəlb edən və bizə nifrətə sevgi ilə, şərə xeyirlə cavab verməyə kömək edən mənəvi fədakarlıq vasitəsilə nail olmaq olar.

Bizim xilasımız üçün dəhşətli təhqirlərə, çarmıx əzablarına və əzablı ölümə dözən İsa bizə məhz belə sevgini göstərdi. Onun hər şeyə qalib gələn və dolğun sevgisi ilə cəhənnəm darmadağın edildi və bütün

bəşəriyyət üçün cənnətin qapıları açıldı. Həyatımızda baş verən hər hansı hadisə zamanı biz unutmamalıyıq ki, şər qüvvələri xəyalidir və o qədər də böyük deyil, çünki yeganə mənbəyi Tanrı olan sevgi və xeyrin gücü ilə müqayisə oluna bilməz. Unutmayaq ki, günaha və yalana qarşı ən yaxşı cavab və ən təsirli vasitə – bizim səmimi və qəlbimizin dərinliyindən gələn və ilk öncə - kilsədə ibadət zamanı etdiyimiz duadır, xüsusilə də - Yevxaristiya ayinində Xilaskarın Özünün Cismi və Qanı ilə birləşmə.

Bu gün böyük Pasxa sevincini yaşayarkən və Qəbirdən qalxan Həyat verən İsanı ehtiram və həyəcanla seyr edərkən, bu xilasedici xəbəri yaxınlarımız və uzaqlarımızla bölüşək ki, onlar Tanrı sevgisinin tərifə gəlməyən nurunu görsün və bizimlə birlikdə Ata, Oğul və Müqəddəs Ruhun hörmətə layiq və gözəl adına dualar edib, tərif desinlər.

Qoy İsanın Dirilməsinin ağlasığmaz xilasedici nuru bizim həyat yolumuzu daim işıqlandırsın və ovundursun və bizi Səmavi Padşahlığın iştirakçısı və varisi etsin.

Sevinin, mənim əzizlərim, çünki
**İSA MƏSİH HƏQİQƏTƏN DİRİLDİ!**

**MOSKVA VƏ ÜMUMRUSİYA PATRİARXI**

***Müqəddəs Pasxa***
***2016-cı il***